

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

№ 32-33 (7437-7438) ✲ 1933-cü ildən nəşr olunur ✲ Çərşənbə axşamı, 11 iyul 2017-ci il. ✲ Qiyməti 40 qəpik


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

İyulun 10-da İstanbulun ev sahibliyi etdiyi 22-ci Dünya Neft Konqresi çərçivəsində prezidentlərin tədbiri keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Üç ildən bir keçirilən və "Enerji gələcəyimizə körpülər" devizi altında İstanbulda təşkil olunan 22-ci Dünya Neft Konqresinə 100-dən çox ölkədən 50 nazir, 5 mindən çox dövlət nümayəndəsi və şirkət rəhbərləri qatılıb.

Yetmiş üzv ölkəni birləşdirən Dünya Neft Şurası dünyada neft-qaz istehsalçıları və istehlakçılarının 96 faizini əhatə edir.

* * *

İyulun 10-da Prezident İlham Əliyev İstanbulda 22-ci Dünya Neft Konqresində iştirak edən digər ölkələrin dövlət və hökumət başçıları ilə görüşüb

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İstanbulda ABŞ-ın dövlət katibi Reks Tillerson ilə görüşü olub.

Görüşdə ikitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən siyasi və enerji sahələrində uğurla inkişaf etdiyi qeyd olunub.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edilib. Prezident İlham Əliyev bu münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyini bir daha bildirib, Ermənistanın təmas xəttində son hərbi təxribatı haqqında məlumat verib.

Söhbət zamanı, həmçinin ölkəmizdə həyata keçirilən siyasi və iqtisadi islahatlar, demokratiyanın inkişafı ilə bağlı məsələlər müzakirə edilib.

* * *

İyulun 9-da İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşüb

Görüşdə Türkiyə-Azərbaycan dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi vurğulanıb, siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin yüksək səviyyədə olduğu bildirilib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edilib. Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin həmişə olduğu kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü prinsipləri əsasında həllinə dəstək verdiyini vurğulayıb.

Dövlət başçıları Türkiyə və Azərbaycanın bütün məsələlərlə bağlı bir-birinin yanında olduğunu qeyd edib.

* * *

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyulun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Türkiyə Prezidenti cəbhə bölgəsində Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində iki azərbaycanlı mülki şəxsin - nənə və nəvənin qətlə yetirilməsi ilə bağlı Azərbaycan Prezidentinə və həlak olanların doğmalarına dərin hüznlə başsağlığı verib, Allahdan səbir diləyib.

Prezident İlham Əliyev telefon zənginə və başsağlığına görə minnətdarlığını bildirib.

Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana göstərdiyi qardaşlıq mövqeyinə və başsağlığına görə bir daha Azərbaycan xalqı adından minnətdarlığını bildirib.

* * *

Prezident İlham Əliyev iyunun 28-də Varşavada Polşa Respublikasının Baş naziri xanım Beata Şidlo ilə görüşüb.

Baş nazir Beata Şidlo Prezident İlham Əliyevin Polşaya rəsmi səfərinin ikitərəfli münasibətlərin genişləndirilməsi baxımından önəmini qeyd edib, Azərbaycan-Polşa biznes forumunun iqtisadi əməkdaşlığın dərinləşdirilməsində əhəmiyyətini vurğulayıb. Azərbaycan-Polşa diplomatik əlaqələrinin qurulmasının 25 illiyinin qeyd olunduğunu bildirən Baş nazir ölkələrimiz arasında əməkdaşlığın uğurla inkişaf etdiyini diqqətə çatdırıb.

Görüşdə dövlətimizin başçısı ikitərəfli siyasi əlaqələrin uğurla inkişaf etdiyini vurğulayaraq, qarşılıqlı ticarət dövriyyəsinin ölkələrimizin mövcud potensialını tam əks etdirmədiyini, onun artırılması üçün əsas istiqamətlərin müəyyənləşdirilməsində Azərbaycanın maraqlı olduğunu bildirib.



# İqtisadiyyatımızın yeni inkişaf mərhələsi

Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı əsasında təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" ilə iqtisadiyyatımızın bütün sahələrində keyfiyyət, məzmun və forma baxımından yeni inkişaf mərhələsi başlanır. Strateji Yol Xəritəsi, ilk növbədə, davamlı iqtisadi inkişafın təmin olunması, milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsi və sosial rifahın artırılması prinsiplərinə əsaslanır

Strateji Yol Xəritəsi yaxın, orta və uzunmüddətli dövrdə milli iqtisadi inkişafın əsas konturlarını dəqiq və konkret müəyyən edir. 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf ortaya qoyan Strateji Yol Xəritəsi milli iqtisadiyyatın mövcud durumu və potensial imkanları nəzərə alınmaqla hazırlanıb.

Milli iqtisadiyyatımızın Prezident İlham Əliyevin rəhbərliyi ilə keçdiyi inkişaf yolunun hərtərəfli təhlilinə, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Davos İqtisadi Forumu və digər nüfuzlu beynəlxalq təşkilatların Azərbaycan iqtisadiyyatına dair hesabat məlumatları və proqnozlarına əsaslanan Strateji Yol Xəritəsi faktiki olaraq dövlətimizin başçısının uzaqgörənliklə hazırladığı yeni iqtisadi konsepsiyasının mahiyyətini, məzmununu və missiyasını təqdim edir.

Qlobal və regional kontekstdə baş verən iqtisadi proseslərin təsirlərini, dünya enerji bazarındakı qeyri-müəyyənliklərin fəsadlarını, milli iqtisadi təhlükəsizliyin təmin olunması zərurətlərini, iqtisadiyyatın şaxələndirilməsi imkanlarını və neft amilindən asılılığın minimuma endirilməsi potensialını kompleks təhlil edən və sistemli şəkildə nəzərə alan Strateji Yol Xəritəsi Azərbaycan iqtisadiyyatının postneft dövründə tamamilə yeni əsaslar üzərində inkişaf etdirilməsini şərtləndirir.

Konkret strateji hədəflərin müəyyən olunması, həmin hədəflərə çatmaq üçün reallaşdırılması nəzərdə tutulan tədbirlərin dəqiq göstərilməsi, müvafiq maliyyələşdirmə, icra, monitorinq və qiymətləndirmə mexanizminin müəyyən edilməsi Strateji Yol Xəritəsinin həyata keçirilməsi ilə bağlı optimist proqnozlar verilməsini mümkün edir. Bu arqumenti son illər ərzində uğurla reallaşdıran iqtisadi inkişaf strategiyası sayəsində qlobal iqtisadi böhranların neqativ təsirlərindən maksimum dərəcədə qorunmağı bacarmış Azərbaycan iqtisadiyyatının fərqli şərtlərin bərqərar olduğu yeni dövrə tam hazır olması reallığı da gücləndirir.

Strateji Yol Xəritəsi ilə müəyyən olunan iqtisadi siyasət milli iqtisadiyyatımızın dünya iqtisadiyyatına daha səmərəli inteqrasiya olunması, malik olduğumuz müqayisəli üstünlüklərdən daha çox fayda əldə edilməsi və beləliklə də davamlı iqtisadi artımın təmin olunması üçün əlavə imkanlar yaratmaqla bərabər, BMT-nin 2016-2030-cu illər üzrə Davamlı İnkişaf Məqsədlərinə və digər bu kimi qlobal çağırışlara töhfə verilməsi baxımından da mühüm əhəmiyyət kəsb edəcək.

## Azərbaycan Prezidenti İlham Əliyev 22-ci Dünya Neft Konqresində iştirak etmək üçün Türkiyəyə səfər edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İstanbulda keçirilən 22-ci Dünya Neft Konqresində iştirak etmək üçün iyulun 9-da Türkiyə Respublikasına səfər edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının dalğalandığı İstanbulun Atatürk Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verib.

Dövlətimizin başçısı fəxri qarovul dəstəsini salamlayıb.

Azərbaycan Prezidentini İstanbul valisi Vasip Şahin və digər rəsmi şəxslər qarşılayıblar.